# QARA GİLƏ




Gəlmişəm otağına oyadam səni,
Qara gilə, oyadam səni.
Nə gözəl xəlq eyləmiş yaradan səni,
Qara gilə, yaradan səni,
Götürüb mən qaçaram aradan səni,
Qara gilə, aradan səni.

N ə q ə r a t:

Qızılgül əsdi,
Səbrimi kəsdi.
Sil gözün yaşın, qara gilə,
Ağlama bəsdi.

Təbrizin küçələri dolanbadolan,
Qara gilə, dolanbadolan.
Əgər məni sevmirsən, get ayrı dolan,
Qara gilə, get ayrı dolan.
Nə mənə qız qəhətdir, nə sənə oğlan,
Qara gilə, nə sənə oğlan.

N ə q ə r a t:

Qızılgül əsdi,
Səbrimi kəsdi.
Sil gözün yaşın, qara gilə,
Ağlama bəsdi.

Evimizin qabağı su gələn arxdı,
Qara gilə, su gələn arxdı,
Durum, çıxım eyvana, yar gələn vaxtdı,
Qara gilə, yar gələn vaxtdı,
Yarım gəlib çıxmayır, ovqatım talxdı,
Qara gilə, ovqatım talxdı.

N ə q ə r a t:

Dərbənd aralı,
Könlüm yaralı.
Bir yar sevmişəm, qara gilə
Ellər maralı.